# Qəbələnin sosial-iqtisadi inkişafı möhkəm zəminə söykənir

## 2019-cu ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin hesabat

# MƏRUZƏSİ

(Əvvəli 5-ci səhifədə).

*Qəbələ gündən-günə gözəlləşir, abadlaşır. Həm tarixi abidələr qorunur, həm yeni obyektlər göz oxşayır.*

**İlham ƏLİYEV.**

məsi və yenidən qurulması, infrastrukturun müasir tələblər səviyyəsində yeniləşməsi istiqamətində işlər davam etdirilmişdir.

Rayonumuzun təhsil işçiləri 2018-2019-cu dərs ilini yüksək nəticələrlə başa vurmuş, ümumitəhsil məktəbləri üzrə müvəffəqiyyət faizi 99,9%, keyfiyyət göstəricisi 66,3% olmuşdur.



*Qəbələdə Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilib.*

Tam orta təhsil haqqında attestat alan məzunların sayı 1137, medala layiq görülmüş məzunların sayı 5, fərqlənmə attestatı alanların sayı isə 37 nəfər olmuşdur.

Görülən işlərin nəticəsidir ki, 3 fevral 2019-ci il tarixdə 363 nəfər IX-XI sinif şagirdi olimpiadaların rayon mərhələsində iştirak etmiş, yüksək nəticə göstərən 135 nəfər şagird olimpiadanın zona mərhələsində iştirak etmək hüququ qazanmışdır. 31 mart 2019-ci il tarixdə keçirilmiş zona mərhələsində rayondan doqquz nəfər şagird respublika turunda iştirak etmək hüququ əldə etmişdir.

IX siniflərdə keçirilmiş buraxılış imtahanlarının nəticələrinə görə Qəbələ şəhər 4 nömrəli, Zarağan kənd 1 və 2 nömrəli, Bunud, Tüntül kənd, Vəndam qəsəbə 1 nömrəli tam orta, Seyidqışlaq və Dizaxlı kənd ümumi orta məktəblərinin göstəriciləri daha yüksək olmuşdur.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “Ən yaxşı təqdimat” müsabiqəsinin rayon mərhələsində şəhər 4 nömrəli tam orta məktəbin X sinif şagirdi Mirzəliyeva Səbinə Samir qızı qalib gəlmiş və respublika mərhələsində iştirak edərək III yeri qazanmışdır.

Şagirdlərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında məktəblərdə keçirilən hərbi idman oyunlarının çox böyük əhəmiyyəti vardır. Belə ki, Qəbələ şəhərində “Şahin” hərbi idman oyununun, Tikanlı sərhəd zastavasında isə “Sərhəd” idman oyununun rayon birinciliklər keçirilmişdir. Qəbələ şəhər 1 nömrəli tam orta məktəbin komandası “Şahin” hərbi idman oyununun rayon birinciliyinin, Vəndam qəsəbə 2 nömrəli tam orta məktəbin şagirdləri isə “Sərhəd” idman oyunlarının rayon birinciliyinin qalibləri olmuşlar. Hər iki məktəb zona birinciliyinə vəsiqə əldə edərək rayonumuzu təmsil etmişdir.

2018-2019-cu dərs ilində rayonun ümumtəhsil məktəblərini bitirmiş 1137 nəfər məzundan 802 nəfəri ali məktəblərə sənəd vermiş, onlardan 485 nəfəri tələbə adını qazanmışdır. Məzunlardan 112 nəfəri 500-dən, 35 nəfəri isə 600-dən yuxarı bal toplamışdır. Məzunları yüksək bal toplayaraq ali məktəblərə qəbul olunan məktəblər sırasında şəhər 1,2,3,4,5 nömrəli, Hacılılı, Həmzəli, Mıxlıqovaq, Nohurqışlaq, Tüntül, Yemişanlı, Dizaxlı, Bunud, Mirzəbəyli, Qəmərvan, Kötüklü və s. kənd tam orta məktəbləri xüsusi olaraq fərqlənmişlər.

Rayonumuzda 23 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Hesabat dövrü ərzində həmin müəssisələrin maddi



*Küveyt Dövlətinin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Saud Abdulaziz Alroomi Qəbələdə.*

texniki vəziyyətin yaxşılaşdırılması məqsədilə 2019-cu ilin yerli büdcəsindən ayrılmış vəsaitə uyğun olaraq 11155 manatlıq yumşaq inventar, 20070 manatlıq bərk inventar, 6000 manatlıq isə digər avadanlıqlar alınaraq bütün uşaq bağçalarına verilmişdir. Nic qəsəbə 2 saylı uşaq bağçası əsaslı təmir edilmiş, digər uşaq bağçalarında isə cari təmir işləri aparılmışdır.

**Hörmətli tədbir iştirakçıları!**

Qəbələ rayonunda fəaliyyət göstərən mədəni-maarif müəssisələrində 2019-cu il ərzində tarixi hadisələr, yubileylər və əlamətdar günlər qeyd olunmuş, bir çox maraqlı mədəni-kütləvi bədii proqramlar hazırlanmışdır.

Həmçinin rayonumuza gələn xarici ölkələrin dövlət rəsmilərinin və turistlərin sayı əhəmiyyətli dərəcədə artmış, beynəlxalq əlaqələrin qurulması istiqamətində mühüm addımlar atılmışdır.

Belə ki, iyulun 31-dən avqustun 5-dək Heydər Əliyev Fondunun təşkilatçılığı, və “Gilan Holdinq”in dəstəyi ilə ənənəvi Qəbələ XI Beynəlxalq Musiqi Festivalı keçirilmişdir. Festivalda dünyanın tanınmış musiqi qrupları və musiqiçiləri iştirak etmişlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında” sərəncamına əsasən Qəbələ şəhərində 6500 ədəd müxtəlif cinsdən ibarət ağac tingləri əkilmişdir.

Cənab Prezidentin tapşırığına əsasən keçirilən “Ölkəmizi tanıyaq” tur-aksiyası çərçivəsində 2019-cu ilin mart və noyabr aylarında respublika məktəblərinin IX-XI sinif şagirdləri rayonumuza səfər etmişlər. Səfər çərçivəsində məktəblilər Qəbələnin tarixi və görməli yerləri ilə yaxından tanış edilmişlər. Həmçinin həmin dövrdə rayonumuzun məktəbliləri tur-aksiya çərçivəsində Gəncə-Şəmkir-Göygöl-Tovuz-Qazax-Ağstafa-Lənkəran-Masallı-Astara rayonları ilə tanış olmuşlar.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qəbələ Rayon İcra Hakimiyyəti və Alban-Udi Xristian Dini İcmasının birgə təşkilatçılığı ilə Nic qəsəbəsindəki Udi Ocağında keçirilən “Qafqaz Albaniyası: tarix və müasirlik kontekstində” mövzusunda beynəlxalq konfransda Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Mənəvi Dəyərlərin Təbliği Fondunun rəsmiləri, İtaliyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri, Azərbaycanın, eləcə də Fransa, Rusiya, Gürcüstan və Litvadan dəvət olunan albanşünas mütəxəssislər, tarixçi alimlər, ziyalılar iştirak etmişlər.

Bununla yanaşı hesabat dövrü ərzində Küveytin, Hindistanın, Meksikanın Azərbaycandakı səfirləri, Almaniyanın, Belarusun, Vyetnamın və Pakistanın nümayəndə heyətləri tanışlıq məqsədilə Qəbələ rayonuna səfər etmişlər. Səfər çərçivəsində qonaqlar

(Ardı 7-ci səhifədə).